AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

Əlyazması hüququnda

ALİYƏ XƏLİL qızı ƏHMƏDOVA

# TONİ MORRİSONUN POETİKASI

5718.01 – Dünya ədəbiyyatı (ABŞ ədəbiyyatı)

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2017

İş Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya üzrə elmlər doktoru, professor<br>Svetlana Əli qızı Cəbrayılova |
| Rəsmi opponentlər: | filologiya üzrə elmlər doktoru, professor<br>Ülfət İsmayıl qızı Bədəlbəyli<br><br>filologiya üzrə fəlsəfə doktoru, dosent<br>Aygün Cahan qızı Məmmədova |
| Aparıcı təşkilat: | Bakı Slavyan Universitetinin Ədəbiyyat nəzəriyyəsi və Dünya ədəbiyyatı kafedrası |

Müdafiə__________________ 2017-ci il saat ______-da Azərbaycan Dillər Universiteti nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D 02.081 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat ________________________2017-ci ildə göndərilmişdir.

D 02.081 Dissertasiya Şurasının elmi katibi,
filologiya üzrə fəlsəfə doktoru, dosent          Həmidə Əhməd qızı Əliyeva

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

*Mövzunun aktuallığı.* Sözü sənətə çevirən dahi yazarlara sahib Amerika ədəbiyyatı bu gün dünya ədəbi prosesində müstəsna rol oynayır. Uzun müddət Amerika ədəbiyyatı həm nəzəri, həm də yaradıcılıq praktikası baxımdan Avropa ədəbiyyatını izləmiş və bu ədəbiyyatın təsiri altında formalaşmışdır. Lakin hazırda milli-etnik tərkibinə görə multimədəni tendensiyaların daşıyıcısına çevrilmiş Amerika ədəbiyyatı dünya xalqları ədəbiyyatları sırasında aparıcı mövqelərdən birini tutmuş və bütün dünyada geniş oxucu kütləsi qazanmağa nail olmuşdur. ABŞ cəmiyyətinin demokratik prinsiplər əsasında formalaşması, ölkənin səviyyəli tarixi hadisələrdə fəal iştirakı, digər ölkələrə nisbətən elm və texnikanın daha dinamik inkişafı, dünya mədəni irsindən səmərəli bəhrələnməsi, ədəbi prosesin gedişi üzərində rəsmi nəzarət və qadağanın olmaması bu ədəbiyyatın böyük bədii-estetik uğurlar qazanmasına səbəb olmuşdur.

ABŞ ədəbiyyatından danışarkən onun yaradıcılarının qeyri-adi milli-etnik tərkibini nəzərdən qaçırmaq olmaz. Bu ədəbiyyatın mayasında anqlo-sakson ədəbi-bədii fikrinin ənənələri ilə yanaşı yerli hindu tayfalarının, habelə müxtəlif ölkələrdən gəlmiş millətlərin folklor qaynaqları dayanır.

Məlum olduğu kimi, humanitar fikirdə postmodernizmin meydana gəlməsi bir sıra obyektiv səbəblərə görə ümumi dünya mədəni paradiqmasının radikal şəkildə dəyişməsi ilə əlaqədardır: multikulturalizm, elitar mədəniyyətlə kütlə mədəniyyətinin qaynayıb-qarışması, milli-mədəni dəyərlərin ümumbəşəri dəyərlərlə çulğaşması ABŞ-da postmodernizmin yaranmasına gətirib çıxarmışdır. Postmodernist yaradıcılıq prinsiplərindən səmərəli şəkildə bəhrələnmə Amerika ədəbiyyatının dinamik inkişafını təmin edir.

Amerika ədəbiyyatının dinamik inkişafında XX əsrin ortalarında və ikinci yarısında yazıb-yaratmış sənətkarlar böyük rol oynamışlar: onlar cəmiyyətin ən mühüm ekzistensial problemlərini orijinal sənətkarlıq prinsipləri əsasında təcəssüm edərək təkcə milli ədəbiyyat üçün deyil, dünya bədii fikri üçün böyük əhəmiyyət kəsb edən yeni tipli yaradıcılıq prinsiplərinin təməlini qoydular. Bu baxımdan müasir Amerika ədəbiyyatı, o cümlədən T.Morrisonun yaradıcılığı aktuallıq kəsb edir.

*Dissertasiyanın elmi yeniliyi.* Məlum olduğu kimi T.Morrisonun əsərləri həm oxucu kütləsi, həm də bədii-estetik fikir tərəfindən rəğbətlə qarşılanmışdır. Paradoksal olsa da, belə bir münasibət yazıçının yaradıcılığının ideya-bədii xüsusiyyətlərinin dərindən və hərtərəfli şəkildə araşdırılmasını arxa plana keçirmişdir. Bu baxımdan tədqiqatın başlıca elmi

yeniliyi T.Morrisonun romanlarının hələ kifayət qədər araşdırılmamış poetik xüsusiyyətlərinin – onun yaradıcılığında magik realizm prinsiplərinin, mifoloji motivlərdən istifadənin özünəməxsusluğunun araşdırılması ilə bağlıdır. Müdafiəyə təqdim olunan dissertasiya işi T.Morrisonun yaradıcılığının həm Amerika, həm də dünya ədəbiyyatında yerini müəyyənləşdirməyə cəhd baxımından da yenidir. İdeoloji təzyiq və qadağalardan xilas olmuş Azərbaycan ədəbiyyatşünaslığında dünya miqyasına çıxmış görkəmli amerikan sənətkarının "kənar"dan, fərqli mədəni və ədəbi-estetik mövqedən dəyərləndirmək təşəbbüsü də elmi yenilik hesab oluna bilər. Ədəbiyyatşünaslığımızda T.Morrisonun yaradıcılığının ilk dəfə olaraq monoqrafik prinsiplər əsasında postmodernizm müstəvisində təhlil olunması yeni addımdır.

*Tədqiqatın obyektini* T.Morrisonun bədii publisistik əsərləri və müasir ədəbi proseslə bağlı yazıları təşkil edir. Bu məqsədlə onun yaradıcılığına həsr olunmuş müxtəlif elmi-nəzəri tədqiqatlardan, yazıçının orijinal və tərcümə olunmuş əsərlərindən istifadə olunmuşdur.

T.Morrisonun əsərlərində öz təcəssümünü tapmış mifoloji motivlərin və arxetiplərin özünəməxsusluğunu tədqiq etmək üçün K.Q.Yunq, E.Kassirer, M.Eliade, V.Levi-Stross, E.M.Meletinski kimi mifoloq və etnoloqların araşdırmalarına müraciət olunmuşdur. T.Morrisonun yaradıcılığının bu araşdırmalar işığında nəzərdən keçirilməsi də dissertasiyanın tədqiqat obyektini təşkil edir.

*Tədqiqatın predmeti.* T.Morrisonun əsərlərində mifoloji motivlərin, magik realizmin qaynaqlarının araşdırılması, habelə dini, irqi və sosial problemlərin postmodernizm rakursunda özünəməxsus təcəssümü xüsusiyyətlərinin işıqlandırılması dissertasiya işinin predmetini təşkil edir.

*Mövzunun işlənməsi.* Nobel mükafatı laureatı T.Morrison müasir Amerika və dünya ədəbiyyatında aparıcı fiqurlardan biri olsa da, bizə elə gəlir ki, onun yaradıcılığı dünya ədəbiyyatşünaslıq fikri tərəfindən hələlik öz miqyasınca layiqli şəkildə tədqiq olunmamışdır. Belə ki, son dövrlərdə Azərbaycan ədəbiyyatşünasları Amerika ədəbiyyatının müxtəlif problemlərini işıqlandırsalar da, XX əsrin ikinci yarısı – XXI əsrin əvvəlləri ABŞ ədəbi-bədii fikrində mühüm rol oynamış zənci ədəbiyyatı, o cümlədən, onun ən görkəmli nümayəndəsi T.Morrisonun yaradıcılığı diqqətdən kənarda qalmışdır. Belə ki, İlqar Əlfioğlu sənətkarın Azərbaycan dilində çap olunmuş seçilmiş əsərləri üçün yazdığı ön sözdə[1] onun

[1] Toni Morrisonun Seçilmiş Əsərləri. Ön söz və tərc. Qasımov İ.Ə. Bakı: Şərq-Qərb, 2011, 808 s.

yaradıcılığı haqqında ümumi məlumat verməklə kifayətlənmişdir.

Rus ədəbiyyatşünaslığında A.M.Zverev, S.A.Puxnataya, S.İ.Çuqunova, S.A.Çakovskiy, N.Y.Tixonoviç və s. tədqiqatçı ədəbiyyatşünaslar tərəfindən T.Morrisonun yaradıcılığı bir qədər ətraflı öyrənilsə də, yazıçının əsərləri ya Amerika ədəbiyyatının ümumi kontekstində öyrənilmiş, ya onun zənci ədəbiyyatındakı mövqeyi işıqlandırılmış, ya da ayrı-ayrı əsərləri tədqiqat obyektinə çevrilmişdir.[1]

Amerika ədəbiyyatşünaslığında T.Morrisonun yaradıcılığı ilə bağlı D.Middleton[2], P.B.Berk, K. Vaqner, Y.Furman, K.Ryan və s. bu kimi tənqidçilər tərəfindən bir sıra iri həcmli tədqiqat işlərinə təsadüf olunsa da, bu yazılarda da diqqət, əsasən onun ayrı-ayrı əsərlərinə yönəlir və görkəmli sənətkarın müasir ədəbi prosesdə mövqeyinin müəyyənləşdirilməsinə cəhd olunur.

Bizə elə gəlir ki, T.Morrisonun Amerika və dünya ədəbiyyatında yerini dəqiq şəkildə müəyyənləşdirmək üçün onun yaradıcılığının monoqrafik tədqiqatına ehtiyac duyulur.

*Dissertasiyanın məqsəd və vəzifələri.* Tədqiqatın əsas məqsədi XX əsrin T.Morrisonun əsərlərində əksini tapmış köklü sosial-bəşəri problemləri postmodernizm kontekstində araşdırmaqdan, irqi ayrı-seçkiliklə bağlı insanları üz-üzə gəldikləri ekzistensial iztirablarını bədii təcəssüm xüsusiyyətlərini, mənəvi-etik problematikanın özünəməxsus cəhətlərini üzə çıxarmaqdan ibarətdir.

Qarşıya qoyulan bu məqsədi həyata keçirmək üçün dissertasiyada aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

– XX əsrin 60-90-cı illər Amerika nəsrinin inkişaf kontekstində T.Morrisonun yerini müəyyənləşdirmək;

– yazıçının əsərlərində magik realizmin təcəssüm xüsusiyyətlərinin, əcdad obrazının, musiqinin, mifin ideya-məzmun və poetika-sənətkarlıq baxımından rolunu aşkarlamaq;

– müəllifin əsərlərində postmodernist açıq final poetikasından istifadənin səbəblərini araşdırmaq;

– sənətkarın romanlarında mifosemantik qatın rolunu və sərhədlərini dəqiqləşdirmək;

– konkret mifoloji obraz və motivləri təhlil etmək;

---

[1] Чугунова С.И. Фольклорные мотивы в художественной прозе Тони Моррисон: Дисс. … канд.филол.наук. Чита, 2008, 152 с.

[2] Middleton David. L. Toni Morrison’s Fiction: Contemporary Criticism. New York, London: Jackson 1997, 323 p.

– yazıçının ideyalarının bədii ifadə xüsusiyyətlərini tədqiq etmək.

*Elmi işin fərziyyəsi.* Toni Morrisonun ədəbi fəaliyyətinin Afro-Amerika ədəbiyyatının inkişafına göstərdiyi təsirlə bağlı aşağıdakı fərziyyələri irəli sürürük:

– Xüsusi çəkisinə, mənəvi-ruhi potensialına və ictimai proseslərə təsir gücünə görə mürəkkəb və təzadlı dövrdə inkişaf etmiş Afro-Amerika ədəbiyyatı məşhur nümayəndələri ilə ABŞ mədəniyyətinin çərçivəsindən kənara çıxmış və dünya xalqları ədəbiyyatı siyahısına qoşulmağa müvəffəq olmuşdur;

– Amerikalı qaradərililərin ictimai-məişət problematikasına köklənmiş Toni Morrison yaradıcılığı afro-amerikan milli şüurunun təcəssümü xususiyyətlərini özündə ehtiva edir;

– Mücərrəd deyim tərzi ilə Toni Morrison şüur və şüuraltı dünyagörüşü və dünyanı qavramaq vasitəsilə afro-amerikan mentalitetini yaradır;

– Tonu Morrisonun bütün yaradıcılığı Amerika zəncilərinin tarixi yaddaşını bərpa etməyə yönəlmiş və milli intibaha çağırışdır;

– Mifoloji element və aspektlərə əsaslanaraq Morrison ilk baxışdan məlum, lakin nəticə etibarı ilə açıq və ya qapalı məkan arasında yeni müxalif strukturlar yaradır;

– Yazıçının bədii aləminin mifoloji-semiotik sistemindəki arxetiplər yalnız mifoloji və etnik-mədəni əsasların simvolik assosiasiya sisteminə bağlıdır;

– Zaman, ənənələr, kollektiv və şəxsi mənəvi təcrübənin məğzi Morrison nəsrinin əsas istiqamətlərini müəyyənləşdirir.

*Dissertasiyanın metodoloji əsası.* Tədqiqatda T.Morrisonun irsini mənsub olduğu milli fikrin və yaşadığı dövrün kontekstində təhlil etmək, onun dünya ədəbi prosesinin bəzi mühüm cəhətlərini üzə çıxarmaq üçün tarixi-müqayisəli metoddan istifadə olunmuşdur.

*Tədqiqatın elmi-təcrübi əhəmiyyəti.* T.Morrisonun yaradıcılığının bədii-estetik problemlərinin araşdırılması müasir Amerika ədəbiyyatının inkişaf qanunauyğunluqlarının müəyyən köklü cəhətlərini üzə çıxarmağa imkan verir. Dissertasiya Azərbaycan ədəbiyyatşünaslığında T.Morrisonun yaradıcılığı haqqında ilk sistemli tədqiqat işi olduğundan onun elmi-nəzəri nəticələrindən müasir ABŞ ədəbiyyatı ilə bağlı tədqiqatlarda, ali məktəblərdə dünya ədəbiyyatı fənninin tədrisində, habelə xüsusi kursların aparılmasında istifadə etmək olar.

*Müdafiəyə çıxarılan əsas müddəalar:*

1. Afro-amerikan ədəbiyyatı özünəməxsus ideya məzmununa və ideya-estetik xüsusiyyətlərə malik olmaqla yanaşı ABŞ ədəbiyyatının üzvi tərkib

hissəsini təşkil edir.

2. XX əsrin ikinci yarısında afro-amerikan mədəniyyətində "Yeni İntibah" ABŞ ədəbi-bədii fikrində sosial-etik və fəlsəfi-sosial keyfiyyət baxımından yeni mərhələnin başlanğıcıdır.

3. T.Morrisonun yaradıcılığında magik realizm müstəvisində realist və modernist estetikanın prinsipləri birləşib sintetik vəhdət təşkil edirlər.

4. T.Morrisonun əsərlərində Bibliya və afro-amerikan folklorunun motivləri konkret sosial-məişət problematikası süzgəcindən keçib universal postmodernist roman üçün əsas yaradırlar.

5. Afro-amerikan mifologiyasının motivləri və magik realizm yaradıcılıq metodunun prinsipləri T.Morrisonun yaradıcılığının əsas qaynaqlarıdır.

6. T.Morrisonun əsərlərinin ideya məzmunu postmodernist poetika əsasında formalaşmış, sənətkarın əsas dövr yaradıcılığında postmodernist intermediallıq prinsipləri qismində afro-amerikan caz musiqisinin estetik ifadə imkanlarından özünəməxsus şəkildə istifadə olunmuşdur.

*Dissertasiyanın aprobasiyası.* Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın başlıca müddəaları və yekun nəticələri dissertantın ABŞ ədəbiyyatı üzrə apardığı seminar məşğələlərinin materiallarında istifadə olunmuş, elmi məcmuə, jurnal və toplularda nəşr olunmuş, Beynəlxalq və Respublika elmi konfranslarında məruzələri dinlənilmiş və tezisləri çapdan çıxmışdır.

*Dissertasiyanın strukturu.* Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi 147 səhifədir.

## İŞİN ƏSAS MƏZMUNU

*Girişdə* mövzunun aktuallığı, elmi yeniliyi, predmeti və obyekti, məqsəd və vəzifələri, metodoloji əsası, nəzəri və praktiki əhəmiyyəti əsaslandırılır, aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiya işinin birinci fəsli *"XX əsr Amerika ədəbi-mədəni mühitində yeni nəsil afro-amerikan ədəbiyyatının bədii estetik xüsusiyyətləri"* adlanır. Birinci yarımfəsildə *("Afro-amerikan ədəbiyyatının tarixi və inkişaf xüsusiyyətləri")* bir tərəfdən özünəməxsus ideya məzmununa və deyim tərzinə malik olan, digər tərəfdən ABŞ ədəbi-bədii fikrinin üzvi tərkib hissəsini təşkil edən afro-amerikan ədəbiyyatının təşəkkülü tarixi xülasə olunur. Məlumdur ki, XVII əsrin əvvəllərində

zorakılıqla Amerikada məskunlaşdırılmış zəngin folklora malik zəncilər yaddaşlarında kodlaşmış mədəniyyətlərini də özləri ilə yeni qitəyə gətirmişlər. Bu artıq XVIII əsrdə F.Vitley, Y.Həmmon, F. Duqlas kimi zənci kökənli sənətkarların meydana gəlməsinə səbəb olmuşdur.[1] Təbii ki, bu yazıçıların əsərlərində irqi bərabərsizlik və abolisionizm aparıcı mövzulardır. Bu baxımdan zənci sənətkarların köləliyi ümumbəşəri mənəvi-əxlaqi dəyərlər kontekstində tənqid atəşinə tutan əsərləri ümumamerika ədəbi-bədii fikrinin mütərəqqi mövqeyi ilə seçilən nümayəndəsi H.Biçer-Stounun məşhur "Tom dayının daxması" romanının pafosu ilə səsləşir. Lakin zənci kökənli sənətkarların böyük mədəni-bədii potensialı uzun müddət özünü gerçəkləşdirə bilmədi və yalnız keçən əsrin 60-70-ci illərində bütün qüdrəti ilə özünü nümayiş etdirdi.

Zənci bədii-estetik fikrinin müasir nəzəriyyə ilə silahlanmasında cənub regional "fücitivistlər hərəkatı" böyük rol oynamışdır. ABŞ-ın cənubi paradoksal şəkildə bir tərəfdən zəncilərin ən çox mənəvi-fiziki zorakılığa məruz qaldığı, digər tərəfdən mədəniyyətlərinin ən böyük uğur əldə etdiyi region olmuşdur. Zəncilər üçün "Şimal yad ellərdir, həsrətini çəkdikləri, amma sonradan məhsul verməyə qadir olmadığını dərk etdikləri torpaqlardır. Cənub isə quldarlığın məskəni və möhnət diyarı olsa da, vətəndir. Qaradərili amerikalıların mənəvi mədəniyyəti bu torpaqda - məhz Cənubda cücərir, Cənubda çiçəklənir..."[2]

Müasir zənci ədəbi-bədii fikrinin formalaşmasında "itirilmiş cənnət" - Afrika üçün nostalgiya genetik yaddaşa həkk olunmuş yüksək estetik dəyər qismində böyük rol oynamış və oynamaqda davam edir. R.Rayt, C.Bolduin, R.Lardner, L.Hyuz kimi sənətkarlarla yanaşı T.Morrison da fəal şəkildə bu ədəbiyyatın bədii-estetik səviyyəsinin yüksəlməsində iştirak etmiş və onun bütün dünyada tanınmasında mühüm xidmətləri olmuşdur. Birinci fəslin ikinci yarımfəslində *("XX əsrin ikinci yarısında afro-amerikan ədəbiyyatı "yeni intibah"ının ümumi ABŞ ədəbiyyatı ilə sosial-etik, bədii-fəlsəfi vəhdəti")* keçən yüzilliyin ikinci yarısında həm afro-amerikan mədəniyyəti və ədəbiyyatında, həm də ümumən ABŞ ədəbi-bədii fikrində mühüm mərhələ olan "Yeni intibah"ın ("Harlem İntibahı"nın) təşəkkül tapmasının səbəbləri və əsas bədii-estetik prinsipləri nəzərdən keçirilir. Sübuta yetirilir ki, ABŞ-da ağdərililərlə qaradərililər bir neçə əsr ərzində yanaşı yaşayıb,

---

[1] The Columbia Guide to Contemporary African American Fiction. Dickson-Carr Darryl. New York: Columbia university Press, 2005, 257 p.

[2] Toni Marrisonun Seçilmiş Əsərləri. Ön söz və tərc. Qasımov İ.Ə. Bakı: Şərq-Qərb, 2011, s.14

eyni tarixi-sosial problemləri həll etsələr də, faktiki olaraq qaynayıb-qarışmamış, iki fərqli aləmdə yaşamışlar. Bu durum afro-amerikan mədəniyyətinin aparıcı nümayəndələrində belə bir fikir hasil etmişdir ki, yalnız özlərinin milli köklərinə və təməlinə söykənən, millətin qaradərili kəsiminin eksiztensial problemlərini üzə çıxarıb yüksək bədii keyfiyyətlərə malik mədəniyyət və ədəbiyyat yaratmaq və bu əsasla bərabərhüquqlu tərəfdaş kimi vahid ABŞ ədəbiyyatının üzvi tərkib hissəsinə çevrilmək olar. Afro-amerikan yazıçılar humanitar fikrin bütün sahələrinə – tarixi, siyasi, dini, ictimai münasibətlərin aktual məsələlərinə müraciət edir, cəmiyyətin üz-üzə gəldiyi problemləri sintetik vəhdət kontekstində işıqlandırmağa çalışırdılar. Harlem İntibahı nümayəndələrinin müxtəlif incəsənət sahələrini bir araya gətirmək cəhdi görkəmli sənətkar Lənqston Hyuzun zənci dünyaduyumunun ən bariz ifadəsi olan caz musiqisi ruhunu poeziyaya hopdurması ilə bağlıdır.

Harlem İntibahı XX əsrin ikinci yarısında ABŞ-da cərəyan edən ictimai-mədəni hadisələrin tərkib hissəsini təşkil edirdi, "hippi" hərəkatının və zənci mədəniyyətinin nümayəndələrinin bir-birinə təsiri, onların çox zaman "kontrkultura" platformasında birləşib ənənəvi mədəni-estetik dəyərlərlə qarşı mübarizə aparmaları bu yaxınlığın bariz ifadəsi idi.

Zəncilərin hüquqları uğrunda mədəni-ideoloji mübarizənin ön sırada duran Harlem İntibahı öz tarixi funksiyasını başa vurduqdan sonra onu "Qara İncəsənət hərəkatı" əvəz etdi. Bu hərəkatın nümayəndələri R.Rayt, R.Ellison, C.Boulduinin ictimai-ideoloji məsələlərlə yanaşı öz əsərlərində ABŞ-da irqi ayrı-seçkiliyə məruz qalan qaradərililərin spesifik ekzistensial problemlərini də təcəssüm etməyə çalışırdılar.

Dissertasiya işinin birinci fəslinin üçüncü yarımfəslində *("Toni Morrisonun yaradıcılığında mifoloji motiv, magik realizm və onun qaynaqları")* bu gün dünya ədəbi-bədii fikrində, o cümlədən T.Morrisonun yaradıcılığında geniş şəkildə tətbiq olunan magik realizm metodunun struktur prinsipləri araşdırılır və qaynaqlarının üzə çıxarılmasına cəhd edilir. Məlum olduğu kimi, magik realizm magiya elementlərinin dünyanın realist mənzərəsinə daxil edilməsi əsasında formalaşmış bədii yaradıcılıq metodudur. Latın Amerikası ədəbi-bədii fikri variantında onun qaynaqları qədim hindu tayfalarının dünyaduyumuna gedib çıxır. Bu dünyaduyumunun təməlini təşkil edən mif və folklor müasir ədəbi düşüncənin, o cümlədən T.Morrisonun yaradıcılığının həm sinxron, həm də diaxron struktur səviyyələrini formalaşdırır. Diaxroniya nəzər-nöqtəsindən T.Morrisonun əsərləri mətn, forma və məzmun göstəriciləri baxımından çox zaman magiya kontekstində tarixi inkişafı özünəməxsus şəkildə əks

etdirir. Sinxroniya nəzər-nöqtəsindən isə, bu, onun əsərlərində mif və folklor struktur səviyyələri kimi yerinin müəyyənləşdirilməsini tələb edir. Bu baxımdan yazıçının əsərlərinin milli özünüifadə qolları qismində dəyərləndirilməsi onların mif və folklor kontekstində öyrənilməsini zəruriyyətə çevirir. T.Morrisonun romanlarında mifoloji motivlərin təhlili müxtəlif yönümlü mifləri, əfsanə və rəvayətləri magiya vasitəsilə əlaqələndirməyə, ilk baxışdan aralarında heç bir bağ mövcud olmayan hadisələri bir-birinin kontekstində izah etməyə imkan yaradır. Onun romanlarında cərəyan edən hadisələrə belə bir yanaşma üsulu postmodernist dövrünün oxucusunu yaradıcılıq prosesinin fəal iştirakçısına çevirir, sənətkar kimi onu da magik reallığı həqiqi reallıq kimi qəbul etməyə sövq edir. T.Morrisonun yaradıcılığında istifadə olunan mifoloji motivlər vahid süjet durumlarına uyğun modellər ortaya qoymağa imkan yaradır ki, bu da oxucuya onlara istinad etməklə postmodernist oxu prinsiplərindən istifadə edərək müəllifin təqdim etdiyi bədii aləmi öz dünyaduyumu, dünyagörüş mövqeyinə uyğun olaraq yenidən qurmaq imkanı verir.

Daha çox qaradərili amerikalıların dünyaduyumundan çıxış edən T.Morrisonun yaradıcılığında mifə fərqli münasibət sərgilənir; onun əsərlərində afro-amerikan mentalitetini formalaşdıran mifoloji ənənələr aparıcı rol oynayır. T.Morrisonun bədii dünyasının əsasını təşkil edən mifoloji motivlərin və obrazların aparıcı sistemi kimi simvollar, arxetiplər və mərasimlər bədii mətnin əsas laylarını təsis edirlər. Lakin sənətkar heç vaxt müasir insanın problemlərini unutmur, onları mifin, folklor nümunələrinin kontekstində gündəlik həyatda təsadüf olunan "möcüzələr"i bir-birinə calayır. Beləliklə, T.Morrisonun poetikasının əsas qaynağını mifləşdirilmiş məişət şüuru, epik rəvayət, ənənəvi şifahi hekayə, lətifə və inanclar təşkil edir.

T.Morrisonun fikrincə müasir dövrdə mifoloji təfəkkür cəmiyyətin üz-üzə gəldiyi maneələri aşmağa imkan verir; əgər gerçəklik insanın dünyaduyumunu məhdudlaşdırırsa, mif insana qeyri-cismani aləmin əngəllərini dəf etməyə yardım edir. Buna görə də, qədim mif dövrü arxada qalsa da, çağdaş insanın müasir bədii təfəkkürü mifsiz keçinə bilmir: miflər böhran içində yaşayan insanı öz təbiətini, niyyətlərini, bəşər tarixinin məntiqini anlatmağa kömək edir. T.Morrisonun yaradıcılığında arxetip mifin təməli, tərkib hissəsidir, mərasim isə təməl dəyərlərin təzahür formasıdır. Beləliklə, mifoloji motivlərin, arxetiplərin, mərasimlərinköməyi ilə yazıçı afro-amerkanların özünəməxsus, eyni zamanda universal səciyyəyə malik kulturoloji-bədii dünyasını yaratmağa nail olur. Onun

istifadə etdiyi obraz və motivlərin adekvat anlamı yazıçının əsərlərinin postmodernist dekonstruksiyası üçün imkan yaradır.

T.Morrisonun mifoloji motivlərə sıx-sıx müraciətinin əsas səbəbi əzəli-əbədi dəyərlər kontekstində afro-amerikanların müasir cəmiyyətdə yerini və rolunu müəyyən etməklə bağlıdır. Universal ümumbəşəri dəyərlərdən çıxış edən sənətkar afro-amerikan başlanğıcını mütləqləşdirməyə meyl edən "ağ olmayan" hər kəsə qeyri-obyektiv yanaşan "zənci irqçi" mifin stereotiplərindən qaçmağa çalışır, "özününkülərə" və "özgələr"ə bölünməyən bir aləm haqqında təsəvvür formalaşdırmağa cəhd göstərir. Lakin bu, heç də "qaradərili"nin dünyaduyumu ilə "ağdərili"nin dünyaduyumunu, onların mədəni prioritetləri arasında fərqi görməyə, inkar etməyə gətirib çıxarmır: T.Morrisonun romanlarının pafosu amerikan cəmiyyətini təşkil edən toplumların çox zaman bir-birinə əks dünyagörüş mövqelərini dialekt vəhdətdə birləşdirməyə və bu zəmində universal dəyərlərə əsaslanan identiklik ideyalarını təcəssüm edir. Universal səciyyə daşıyan mifoloji motivlərin vasitəsilə T.Morrison afro-amerikan dünyaduyumunun çərçivəsini aşır, öz magik realizmi ilə onun ümumbəşəri mədəniyyətin üzvi tərkib hissəsi olmasını sübuta yetirir. T.Morrisonun əsərlərində bədii ifadəsini tapmış mifoloji motivlər insanlar arasında harmonik münasibətlər sistemi yaradan birləşdirici element kimi çıxış edir. Onun vasitəsilə yazıçı ənənəviliyi müasirliklə, fərdi cəmiyyətlə, insanı öz kökləri ilə, keçmişi gələcəklə, xüsusisini ümumi ilə əlaqələndirməyə nail olur.

T.Morrisonun romanlarında Afrika mədəniyyətində mühüm rol oynamış maska elementindən geniş istifadə olunur. Yazıçı bu elementdən bu və ya digər həqiqəti ört-basdır etməklə yanaşı, paradoksal şəkildə personajın daxili aləminə nüfuz etmək, onun intim cəhətlərini üzə çıxarmaq üçün istifadə edir: onun əsərlərində maska mədəni identifikasiya vasitəsidir. Bəzi hallarda maska insanı fərdi xüsusiyyətlərdən məhrum edir və onu faciəyə sürükləyir.[1] Digər hallarda isə ona öz fərdiliyini pərdələyərək cəmiyyətin ortaya qoyduğu tələblərə uyğunlaşmağa və beləliklə təcavüzkar ictimai təzyiqdən xilas olmağa kömək edir. T.Morrisonun romanlarında maska postmodernist fərd - cəmiyyət oyununun aparıcı elementlərindən biri qismində çıxış edir. Fərdin iç aləmini cəmiyyətdən gizlətmək vasitəsi olan maska T.Morrisonun oxucusu üçün şəffafdır: maska oxucuya çox vaxt qəhrəmanın özünün də dərk edə bilmədiyi gizli həqiqətlərini üzə çıxarmağa, onun maskasının təbiətini müəyyən etməyə xidmət edir.

[1] Quliyev Q. XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları. Bakı: Bəxtiyar, 2012, 343 s.

T.Morrisonun romanlarında maska sənətkarın bədii-fəlsəfi kodunun açarıdır.

T.Morrison klassik ədəbiyyatda geniş işlənmiş “şəhər-kənd”, “sivilizasiya-təbiət” qarşıdurmasını əsərlərində postmodernist dünyagörüş mövqeyindən və poetikası prinsipləri əsasında təcəssüm etdirir. Onun mifoloji sisteminin əsasında iki məkan “şəhər” və “meşə” durur; “şəhər” insana yad və düşməndir, “meşə” isə doğmadır, təhlükəsiz və müqəddəsdir. Bu motiv xüsusilə yazıçının “Caz” əsərində öz hərtərəfli bədii əksini tapmışdır: bu əsərdə qəhrəmanlar yalnız özlərini təbiətin tərkib hissəsi kimi dərk edir, aramsız kosmik gedişatda iştirak edirlər. Bu baxımdan “şəhər” insanı öz təbiətindən özgələşdirən bir başlanğıc kimi təsvir olunur. Eyni zamanda paradoksal şəkildə Morrisonun romanlarında “şəhər” yeni həyata ümid bəsləməyin simvolu kimi də göstərilmişdir.

T.Morrisonun əsərlərinin poetikasında ad mifoloji motivin tərkib hissəsi kimi mühüm əhəmiyyətə malikdir: ad təsadüfi və sabit deyil, qəhrəmanın həyatında baş verən köklü dəyişikliklərlə bağlı ad da dəyişir. Müəyyən hallarda isə, məsələn, “Caz” əsərinin qəhrəmanı Co Treys kimi özü öz adını dəyişir.[1]

T.Morrisonun əsərlərində adlarla yanaşı rəqəm, tarix, rəng, dad, iy də konkret və real xüsusiyyətləri təcəssüm etməklə mücərrədləşərək rəmzi məna və qlobal səciyyə kəsb edirlər, “danışan” substansiyalara çevrilib fərdin iç aləminə, dünyanın gizli qatlarına nüfuz etməyə imkan yaradırlar. Postmodernizmdə dünyanı dərkin bu aparıcı elementləri intellektual və emosional ötürücü rolunu oynayır, yazıçı ilə oxucunun səmərəli ünsiyyətini təşkil edirlər.

Afro-amerikan düşüncə tərzinin mahiyyətini təcəssüm edən özünəməxsus xronotop T.Morrisonun əsərlərinin poetikasında mühüm yer tutur: əgər Qərb mədəniyyətini təmsil edən sənətkarların əsərlərində zaman keçmişdən gələcəyə doğru hərəkət edən geriyə dönməz səciyyəyə malikdirsə, afro-amerikan düşüncə tərzində zaman daim geriyə qayıdır, təkrar olunur.

T.Morrisonun əsərlərində bu bir-birinə əks kosmoqonik təsəvvürlər birləşir: Qərb düşüncə tərzinə xas olan xəttilik, sistemlilik, rasionallıq paradoksal şəkildə afrikan kosmoqoniyasına xas olan dairəvilik və təkrarolma ilə birləşib üzvi vəhdət təşkil edir. T.Morrisonun yaradıcılığında bədii aləm doğma və yad, açıq və qapalı, əbədi və fani, xətti və dairəvi, sakral və gündəlik, tarixi və mifoloji qarşıdurmalar üzərində qurulmuşdur.

[1] Morrison T. Jazz. New York: A. Knopf, 1992, 229 p.

Bütün bunlar yazıçının bir tərəfdən özünün etnik-milli mədəniyyətini təsdiq etmək, digər tərəfdən bu əkslikləri birləşdirən amilləri üzə çıxarmaq, bütün amerikalıların eyni mədəniyyət çərçivəsində harmonik yaşam yollarını müəyyən etməklə bağlı idi. T.Morrison öz əsərlərinin poetikası vasitəsilə Amerika cəmiyyətində mövcud olan real ziddiyyətlərin həlli yollarını üzə çıxarmağa cəhd edirdi.

Yazıçı əsərlərində universallıq və sakrallıq aşılamaq məqsədilə təkrarlanan ədəbi motivlər qismində öz xalqının mədəni, tarixi, mənəvi-ruhi təcrübəsini mifləşdirir. Sosial-məişət və mifoloji motivlərin sintetik vəhdəti, simvolik elementlərlə zənginləşdirilməsi T.Morrisonun romanlarına əsrarəngizlik gətirməklə onun əsərlərində istifadə olunan simvol və arxetiplərin şifrələnməsi, bədii məlumatın ötürülməsi vasitəsi olmaqla yanaşı xüsusi mikroskomik mərkəzlərdir.

T.Morrisonun əsərlərində mifologiyadan yaradıcı şəkildə istifadə insan mövcudluğunun ən dərin qatlarına nüfuz edib universal varlığın mühüm formalarını üzə çıxarmaq məqsədi güdür. Yazıçının əsərlərində mif reallığın və irreallığın təması və uyuşması prosesində simvolik substansiya qismində ortaya çıxır. Onun qəhrəmanları mifin köməyi ilə maddi dünyanın fövqünə yüksəlir və simvolik fəaliyyətə keçir. Mif vasitəsilə yazıçı oxucuya özünün düşüncə tərzini, həyəcanlarını "tanrının sözü" kimi çatdırmağa cəhd edir: onun əsərlərində mif postmodernist poetikanın tələblərinə cavab verərək yazıçı ilə oxucu arasında məsafəni aradan qaldırır, yazıçıya özünün ən məxfi, ən mərkəzi hiss və düşüncələrini oxucu ilə bölüşdürməyə imkan yaradır, subyekt və obyekt, daxili və xarici arasında mövcud olan gərginliyi aradan qaldırmağa xidmət edir.

Yazıçının mifologiyadan yaradıcı şəkildə istifadə etməsi nəticəsində formalaşmış kollektiv yaddaş konsepsiyası onun əsərlərinin poetikasının əsasını təşkil edir. T.Morrison bir tərəfdən K.Yunqun kollektiv şüursuzluq konsepsiyasına haqq qazandırır, digər tərəfdən bu fenomenin qat-qat mürəkkəb olması qənaətindən çıxış edir, öz əsərlərində təsvir etdiyi afro-amerikan toplumunun dünyanı dərkində şüursuzluqla şüurun çulğaşmasını bədii vasitələrlə və inandırıcı şəkildə sübuta yetirir. O, bədii axtarışların mərkəzinə milli özünüdərk problemini qoyur. Yazıçının istisnasız olaraq bütün əsərlərində qaradərililərin etnik köklərinə, xalq ənənələrinə, folklora, mifologiyaya bağlılıq aşkar görünür. Məhz buna görə də müasirliyin bütün problemlərini mif süzgəcindən keçirmək onun yaradıcılığının invariantını təşkil edir.

T.Morrisonun əsərlərində qadın obrazları üstünlük təşkil etsələr də, onu heç də gender problemi ilə bağlı təcavüzkar mövqedən çıxış edən

feminist sənətkar hesab etmək olmaz. Onun əsərlərinin baş qəhrəmanı nəyin bahasına olursa-olsun öz hüquqlarını bərqərar etmək istəyən feminist qadın yox, ideal ana və kişinin vəfalı həyat yoldaşıdır.

Dissertasiya işinin ikinci fəsli *"Toni Morrison yaradıcılığında realist və modernist estetikanın sintezi"* adlanır. Bu fəslin birinci yarımfəslində *("XX əsrdə yeni zənci ədəbiyyatının inkişafında modernizmin xüsusiyyətləri")* ABŞ ədəbi-bədii fikrində modernizmin özünəməxsus xüsusiyyətləri araşdırılır. Göstərilir ki, T.Morrisonun yaradıcılığında aparıcı yer tutan magik realizm müasir deyim tərzinin folklora geniş və hərtərəfli müraciəti ilə diqqəti cəlb edir.

T.Morrison dahi sələfi U.Folknerin ənənələrini yalnız onun ideya məzmununu əxz etməklə yox, həmçinin onun özünəməxsus deyim tərzindən yaradıcı şəkildə bəhrələnməklə davam və inkişaf etdirir. Bu baxımdan hər iki sənətkarı birləşdirən əsas cəhət onların irqi ayrı-seçkiliyə mənfi münasibətləri ilə bağlıdır. Bu, sənətkarların deyim tərzində də özünü büruzə verir: həm Folkner, həm Morrison polifonik təhkiyə üslubuna üstünlük verirlər. İnsanın keçmişi ilə bağlı olan indikini, keçmişin indi üzərində əbədi hökmranlığı hər iki sənətkarın yaradıcılığında öz əksini tapmışdır. Lakin əgər Folkner ağdərili sənətkar kimi zənci problemini xaricdən müşahidə edirsə, T.Morrison qaradərili yazıçı qismində zəncilərin üzləşdiyi problemləri daxildən görür və öz üzərində hiss edir.

T.Morrisonun fikrincə, U.Folknerin ənənələrini yaradıcı şəkildə davam etdirməyin ən kəsə yolu magik realizm konsepsiyasından istifadə ilə bağlıdır. Bu baxımdan, əgər Folkner yaradıcılığında əsasən Bibliya mifik düşüncə tərzinə və simvolikasına əsaslanırsa, T.Morrison xristian dünyagörüşünü zənci mifologiyası və folkloru ilə üzvi vəhdətdə birləşdirir. Bu, Folknerin "Avesselom Avesselom", "Avqustda işıq" əsərləri ilə T.Morrisonun "Sula", "Solomonun nəğməsi" romanları arasında ümumi və fərqli cəhətləri nəzərə çarpdırır. Klassik Amerika ədəbiyyatına, xüsusilə, M.Tvenin əsərlərinə münasibət də Folknerin və Morrisonun yaradıcılıqlarını birləşdirən cəhətdir.

T.Morrisonun yaradıcılığının uğuru bir də onunla bağlıdır ki, o, Amerika və dünya ədəbiyyatında baş verən prosesləri dərindən dərk edir və postmodernist prinsiplər əsasında onları təhlil etməyi bacarır: bir tənqidçi kimi o, amerikan feminist dekonstruktivizminin görkəmli nümayəndəsidir. Bu konsepsiyanın müddəalarından çıxış edən T.Morrison kişini qadına, nitqi yazıya, rasionallığı irrasionallığa, qanuniliyi qeyri-qanuniliyə, sülhü müharibəyə qarşı qoyur və bu kontekstdə ədəbi gerçəkliyi araşdırır. T.Morrisonun fikrincə, müasir roman ənənəvi romandan fərqli olaraq

hadisələri bir aparıcı mövzu ətrafında birləşdirmir. Bu, ədəbi-bədii sözün missiyasının köklü şəkildə dəyişməsi ilə bağlıdır; hal-hazırda sənətkarın vəzifəsi reallığı onun öz formasında təcəssüm etmək yox, aramsız şəkildə yaradılan və sönüb yenidən yaradılan reallığı təsvir etməkdir.

70-ci illər dünya ədəbi prosesində yaradıcılıq metodu qismində magik realizmin ön plana çıxması ilə xarakterizə olunur. T.Morrisona görə magik realizmi səciyyələndirən beş başlıca cəhət mövcuddur: 1. *Bədii nümunələrdə ruhun və ya kabusun protaqonist qismində iştirakı; 2. Ölümün kəfəni yırtıb həyata qayıtmaq hallarının təsviri; 3. İlahi qüvvələrin mövcudluğunun və himayəsinin əks olunması; 4. İzahı müşkül qəribəliklərin adi həyat hadisələri kimi qələmə alınması; 5. Mifdən və folklordan geniş istifadə.* Bir sənətkar kimi bu prosesdə fəal iştirak edən T.Morrison magik realizm kontekstində afro-amerikan folkloruna müraciət etmişdir. Bu magik realizmin bədii təcəssüm üfüqlərini genişləndirdi və onun yaradıcılıq metodu qismində universallıq kəsb etməsi üçün zəmin yaratdı: hər bir sənətkar təmsil etdiyi xalqın folkloruna müraciət etməklə bir tərəfdən onun özünəməxsus cəhətlərini üzə çıxarmaq, digər tərəfdən bu zəmində ümumbəşəri dəyərlərə qovuşmaq imkanı əldə edir. T.Morrison magik realizmin poetikasına xas olan zaman ardıcıllığının pozulmasından, səbəb-nəticə əlaqələrinin yerdəyişməsindən yaradıcı şəkildə istifadə etməklə XX əsrdə fərdin, xüsusilə zənci toplumunun nümayəndəsinin üz-üzə gəldiyi ekzistensial problemlərin mahiyyətinə nüfuz etməyə nail olmuşdur. T.Morrison postmodernizmin təmsilçisi kimi ənənəvi yaradıcılıq metodlarının (romantizmin, klassik realizmin) nümayəndələrindən fərqli olaraq, bədii düyünü açmağa cəhd göstərmir və bunu oxucunun ixtiyarına buraxır. Ənənəvi romanın poetikasında edilən bu köklü dəyişiklik oxucunu yaradıcılıq prosesinin bərabərhüquqlu iştirakçısına çevirir; bədii nümunənin ümumi səciyyəsinin müəyyən olunması və nəticə çıxarmaq missiyasının oxucuya həvalə edilməsi T.Morrisonun əsərlərinin mətnini semantik baxımdan sərhədlərini genişləndirir, oxucuya müəllifin vermək istədiyi dar məna qəlibindən çıxmağa imkan verir. Postmodernist poetika T.Morrisona mifə, tarixə, dini mövzulara, afro-amerikan folkloruna müraciət edərək onların harmonik vəhdətini yaratmağa imkan verir: onun əsərlərində postmodernist poetika realist və modernist estetikanın müxtəlif cəhətlərini əxz edərək özündə birləşdirir.

"Solomonun nəğməsi" romanı T.Morrisonun postmodernist poetikanın imkanlarından uğurla istifadəsinə misal ola bilər; burada Bibliya əfsanələri, yunan mifologiyası və Afrika folkloru müasir kontekstdə qaynayıb-qarışmış, bəşər övladının əzəli-əbədi eksiztensial problemlərini işıqlandıran

ədəbi-bədii nümunəyə çevrilmişdir. T.Morrisonun "Solomonun nəğməsi" əsəri ilə modernist C.Coysun "Sənətkarın gənclik portreti" romanı arasında eyni mifoloji qaynağa müraciət onların arasında xələf-sələf münasibətlərinin mövcudluğundan xəbər verir. Lakin burada mifə fərqli münasibət sərgilənir, fərqli bədii şərh verilir: əgər modernistlər mifin semantik hüdudlarında qalmağı üstün tutub ona ciddi müraciət bəsləyirlərsə, postmodernistlər mənbəyindən asılı olmayaraq mifi istehza süzgəcindən keçirib faktiki olaraq rişxəndə köklənmiş yeni mif yaradırlar. Bu baxımdan T.Morrisonun əsərlərində söz-işarə bu və ya digər məkanı birbaşa ifadə etməklə yanaşı öz semantik hüdudlarını aşır, simvola çevrilir, yeni-yeni məna qatları üçün müsbət zəmin yaradır. Məsələn, Bibliyadan romanın adı qismində seçilmiş "Solomonun nəğməsi" söz birləşməsi sırf simvolik səciyyəyə malikdir və müasir gerçəkliyi Bibliya mifologiyası ilə bağlamaq və onun kontekstində izah etmək üçün əsərə verilmiş addır. Bununla da T.Morrison öz romanında bütün dünyanı – onun dünənini, bu gününü və gələcəyini ehtiva edib metafiziki səciyyə daşıyan mənəvi dəyərlər ifadə edən bədii nümunə yaratmağa nail olmuşdur.

T.Morrison xalqının tarixini və mədəniyyətini öz oxucusuna adekvat şəkildə təqdim etmək üçün folklor düşüncə tərzinə xas möcüzələrdən yararlanaraq onlar paradoksal şəkildə real gerçəkliyin mahiyyətini ifadə edən ünsürlərdən əsərlərində istifadə edir. Bunun sayəsində müəllif magik-fantastik reallığı gündəlik sosial-məişət problemləri ilə əlaqəli şəkildə təcəssüm etməyə nail olur.

T.Morrison belə hesab edir ki, müasir dünyanın gerçəkliyini yalnız unikal dəyərlər sistemindən çıxış edən qəhrəman obrazına söykənən universal roman ifadə edə bilər. Bu isə paradoksal şəkildə bədii obrazın özündə sırf sosial-məişət problemlərinin möcüzə ilə, rəvayətlə üzvi vəhdətdə birləşməsi zəminində mümkündür. Bibliyanı və afro-amerikan folklorunun motivlərini konkret sosial-məişət problemləri ilə üzvi-bədii vəhdətdə birləşdirən sənətkar bəşər nəslinin əzəli-əbədi problemlərini ehtiva etməyə və postmodernist roman janrının uğurlu nümunələrini yaratmağa müvəffəq olmuşdur. T.Morrisonun yaradıcılığında qeyri-adi, mistisizimlə mayalanmış durumlarla yanaşı real həyat səhnələrinə sıx-sıx rast gəlmək olar. Qeyri-adiliyi adiliklə, fövqəltəbiliyi təbiiliklə üzvi vəhdətdə birləşdirən yazıçı qələmi ilə realizmin sərhədlərini genişləndirir; realizmi irreal ünsürlərlə zənginləşdirən T.Morrison gerçəkliyin içində hiperreallığın mövcudluğunu üzə çıxarmağa çalışır.

"Solomonun nəğməsi" əsərinin semiotik təhlili adlar sisteminin romanın poetikasında mühüm rol oynamasını, onun ideya məzmununu

yığcam şəkildə ifadə etməsini, mifologiya və folklor başlanğıcını üzə çıxarır. Bu tendensiya T.Morrisonun sələfi Şekspirin “Otello” faciəsinin motivləri əsasında yazdığı “Dezdemona” pyesində öz əksini tapır. Belə ki, T.Morrison postmodernist söz oyunu prinsiplərindən məharətlə istifadə edərək “Dezdemona sözünün mətnindəki “demon” sözünün antik (yunan mifologiyasında bəzən kinli, bəzən də xeyirxah ilahi qüvvə) və xristian Avropa (ancaq bəd əməllərlə yaşayan şeytan) mədəniyyətlərində təkamül prosesi nəticəsində ortaya qoyduğu bütün məna variantlarını öz mətninə hopdurmağa nail olmuşdur. Postmodernist dekonstruksiya nəzər nöqtəsindən T.Morrisonun Dezdemonası həm antik, həm də erkən xristianlıq təsəvvürləri kontekstində təqdim edilir. Belə bir yanaşma bu obrazı çoxistiqamətli edir. Dezdemona obrazı faktiki olaraq Morrisonun yaradıcılığının bütün problemlərini əhatə edir.

İkinci fəslin ikinci yarımfəslində *(“Toni Morrisonun “Mas-mavi gözlər”, “Sevgili”, “Caz” romanlarındakı mif, din, irqi və sosial bərabərsizlik problemləri postmodernist dünyagörüşü müstəvisində*”) sənətkarın əsərlərinin ideya məzmunu postmodernist poetikanın prinsipləri əsasında araşdırılır. Postmodernist müstəvidə təhlil T.Morrisona əsərlərində əksini tapmış konkret aktual problemləri, ilk növbədə irqi və sosial bərabərsizliyi, metafiziki dəyərlər işığında təcəssüm etməyə imkan verir. Bu məqsədlə müəllif ilk baxışdan bir-birindən son dərəcə aralı görünən, aralarında heç bir əlaqə olmayan hadisələri yaxınlaşdırmağa, bir-birinin kontekstində izah etməyə şərait yaradan metaforalar vasitəsilə həyat həqiqətlərinin ziddiyyətlərini əyani şəkildə oxucuya çatdırır. Bu metaforalar yazıçının əsər boyu ustalıqla istifadə etdiyi simvolların mahiyyətini açmağa xidmət edirlər. Bu baxımdan T.Morrisonun ilk romanlarında əksini tapmış, onun həyat faciəsinin mahiyyətini açıqlayan “mas-mavi gözlər” simvolu səciyyəvidir. Bu romanda tutumlu təkrarlanan və ədəbi fəsil metaforası bir tərəfdən bəşəriyyəti və nəsil-nəsil əvəzlənmə əsasında əbədiliyə, digər tərəfdən insanın aramsız əzablarının zaman-zaman təkrarlanmasını bildirir. Mas-mavi gözlər zənci qızcığazın istəyi olmaqla yanaşı, sosial gözəllik standartını ifadə edir. Cəmiyyətin ağdərililərə və qaradərililərə paralanmasının səbəblərini simvolik tərzdə üzə çıxarır: insanlar bir-birindən yalnız fərd-fərd deyil, həmçinin irq-irq, təbəqə-təbəqə özgələşirlər. Metaforalar və simvollar sistemi vasitəsilə əsərdə cərəyan edən bütün hadisələr məqsədyönlü şəkildə və kəsə yolla aparıcı ideyaların açıqlanmasına xidmət edirlər.

Köləlik dövrünün zəncilərin kollektiv yaddaşında buraxdığı izlər mövzusuna həsr olunmuş “Sevgili” romanında Qərb ədəbi-bədii prinsipləri

əsasında formalaşmış Z.Freydin psixoanaliz nəzəriyyəsinə söykənən Edip kompleksindən insanın iç aləminə nüfuz etmək üçün istifadə edən amerikan ədəbi-bədii ənənələrindən fərqli olaraq T.Morrison zənci xalqının sosial və mədəni özünəməxsusluğunu ehtiva edən afrikan düşüncə və ifadə tərzini ön plana çəkir. Sənətkar belə bir ideyadan çıxış edir ki, formal baxımdan irqi ayrı-seçkilik problemi zəncilərin keçmişi ilə bağlı olsa da, indiki zamanda onun mənəvi-ruhi fəsadları daim özünü büruzə verir: mahiyyət etibarı ilə nə ağdərililər zənciləri kölə qismində nəzərdən keçirməkdən və dəyərləndirməkdən imtina edə bilmiş, nə də zəncilərin özləri köləlik kompleksindən yaxa qurtarmağa nail olmuşlar.

Oxucunu dərin dramatizmi ilə sarsıdan “Sevgili” romanının ideya məzmunu zəncilərin mental dəyərlərinin dərindən və ətraflı şəkildə araşdırılması ilə müəyyən olunur. Əsərdə bu araşdırma postmodernist poetikanın aparıcı prinsiplərindən olan “Xaosmos” (xaosun kosmosa, kosmosun xaosa çevrilməsi) əsasında həyata keçirilir. Mozaik səhnəciklər təsiri bağışlayan parçalar aramsız şəkildə əsər boyu səpələnmişdir. Addım-addım, lakin labüd şəkildə divanəliyə doğru gedən qəhrəmanın həyatını təsvir edən yazıçının məqbul saydığı yeganə məntiq – məntiqsizlikdir. Yazıçı əsərində hökm sürən xaosu kosmosa çevirmək - nizamlamaq iqtidarında deyil və bunu oxucunun ixtiyarına buraxır. Klassik bədii nümunələrdən fərqli olaraq T.Morrisonun “Sevgili” romanında insanın üz-üzə gəldiyi ekzistensial problemlərlə bağlı suallara müəllif cavab verməkdən prinsipial şəkildə imtina edir və bunu da oxucunun öhdəsinə buraxır.

T.Morrisonun əsərləri bir qayda olaraq həm ideya məzmunu, həm də poetika baxımında inteqrativ prosesləri ehtiva edirlər. Belə ki, “Caz” romanında adından da göründüyü kimi ədəbi-bədii nümunənin afrikan dünyaduyumunun əsasını təşkil edən caz musiqisinin prinsiplərinə uyğun qurulmasına cəhd olunur. Əsərdə hadisələr caz kollektivinin improvizasiyası yönündə cərəyan edirlər; gözlənilmədən, özü də bəzən sənətkarın, bəzən də onun personajlarının ovqatından asılı olaraq bir mövzu digər mövzuya çevrilir. Bu yolla caz bədii söz nümunəsinin canına hopur, onun strukturunu formalaşdıran amilə çevrilir. Bu, romanın poetikasının aşağıdakı elementlərində özünü büruzə verir: *1) mətnin improvizasiya əsasında təşkil olunmasında; 2) caz musiqisinin nüfuzetmə imkanlarından istifadə olunması ilə oxucunun şüuraltına təsirdə.*

“Caz” romanında afro-amerikan musiqisi motivlərindən istifadə üslub səviyyəsində də təzahür edir: ənənəvi romandan fərqli olaraq “Caz” əsərində hərəsinin öz dünyagörüş mövqeyi, hadisələrin şərhinə fərqli

münasibəti olan iki təhkiyəçi iştirak edir. Müxtəlif dünyagörüş mövqelərindən çıxış edən, çox vaxt əsərdə cərəyan edən hadisələrə əks mövqedən münasibət bəsləyən bu iki təhkiyəçi romanın mətnində caz musiqisi zəminində dialektik vəhdətdə birləşirlər.[1]

Beləliklə, T.Morrison caz musiqisinə müraciət etməklə magik realizm yaradıcılıq metodunun vasitəsilə afro-amerikan musiqisinin imkanlarını üzvi vəhdətdə birləşdirir və əsərinin yeni təhkiyə vasitələri ilə zənginləşməsinə nail olur.

*Nəticə*də dissertasiya işində əldə olunan qənaətlər ümumiləşdirilir və yeni tədqiqat istiqamətləri müəyyən olunur: birincisi, T.Morrison afro-amerikan mənşəli ilk Nobel mükafatı laureatıdır; ikincisi, yazıçı Afro-Amerika ədəbiyyatına dünya ədəbiyyat tarixində müxtəlif xalqların mövcud ədəbiyyatı statusunda yaşamaq hüququ qazandırdı; üçüncüsü, T.Morrison müxtəlif etnik-milli mədəni sistemlərin ənənələrini yaradıcılıq axtarışlarında səmərəli şəkildə birləşdirməyi və eyni zamanda özünün fərdi üslubunu və bənzərsiz yazı manerasını qoruyub saxlamağı bacardı; dördüncüsü, T.Morrison tarixlə müasirliyi, ənənə ilə novatorluğu əlaqələndirməklə yanaşı, dünya ədəbi-bədii fikrində meydana gələn axtarışların ən son nailiyyətlərinin önündə getməyə nail oldu və dövrün sayılan postmodernist yazıçılarından birinə çevrildi; beşincisi, magik və fantastik elementlərlə zəngin, poetik ifadəliliyi ilə seçilən əsərlərində Amerika həqiqətlərinin əsas aspektlərini işıqlandırdı; altıncısı, T.Morrison Amerika zəncilərinin tarixi yaddaşını bərpa etməyə cəhd göstərərək real həyat səhnələrini sənətə çevirmiş, tarixi bədiiləşdirmiş, ədəbiyyatı tarixiləşdirmişdir.

Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:

1. Nobel mükafatına layiq görülmüş ilk zənci qadın // Elmi xəbərlər. Bakı: ADU, 2006, № 2, s. 132-135
2. Ailə və mühitin qurbanları // Humanitar Elmlərin Öyrənilməsinin Aktual Problemləri. Bakı: BSU, 2006, № 4, s. 67-70
3. Magik realizm postmodernist nəsrin tərkib hissəsi kimi // Dil və Ədəbiyyat. Bakı: BDU, 2007, № 3, s. 108-110
4. Toni Morrison yaradıcılığına işıq salan Folkner istedadı // Filologiya məsələləri. Bakı: Nurlan, 2007, № 5, s. 212-223

[1] Eckard Paula Gallant. “Music in Toni Morrison’s “Jazz”, Transportation of interaction and literature”. New York: CLA Journal, 1995, 119 p.

5. Toni Morrisonun “Sevimlim” romanında zənci qadının dünyaduyumunun təcəssümü xüsusiyyətləri // Elmi xəbərlər. Bakı: ADU, 2007, № 1, s. 168-172
6. Toni Morrisonun “Sula” romanında Bibliya motivlərinin postmodernist təzahürü // Tədqiqlər. Bakı: AMEA Nizami adına Ədəbiyyat İnstitutu, 2007, № 1, s. 315-320
7. Zəngin ənənələrin davamçısı // Elmi əsərlər. Naxçıvan: Qeyrət, 2008, № 4, s. 48-52
8. Toni Morrisonun yaradıcılığında irqçilik mövzusu // İpək Yolu. Bakı: Azərbaycan Universiteti, 2014, № 1, s. 116-119
9. Резонанс Несчастных Судеб – Семейная Проблематика в Прозе Тони Моррисона / Научные исследования в сфере гуманитарных наук: Открытия XX века. Материалы международной научно-практической конференции. Пятигорск, 2014, с. 33-37
10. Две Дездемоны, или современное переосмысление образа Дездемоны // Хабаршы. Алматы: Казахский Национальный Университет имени Аль-Фараби, 2014, № 4-5 (150-151), с. 269-272
11. Мультикультурная пьеса в творчестве Шекспира и Тони Моррисон // Межкультурные Коммуникации. Тбилиси: 2015, № 24, с. 48-51
12. Toni Morrisonun “Mas-mavi gözlər” əsərində irqi bərabərsizlik mövzusunun metaforik xüsusiyyətləri // Ədəbi Əlaqələr. IX toplu. Bakı: AMEA Nizami adına Ədəbiyyat İnstitutu, 2015, s. 81-85
13. Toni Morrisonun “Solomonun nəğməsi” romanında əcdad obrazının transformasiyası // Ədəbi Əlaqələr. IX toplu. Bakı: AMEA Nizami adına Ədəbiyyat İnstitutu, 2016, s. 58-64
14. Toni Morrison yaradıcılığının tədrisində innovativ metodlarin rolu / Xarici dillərin tədrisinin aktual problemləri. Respublika elmi-praktik konfransının materialları. Bakı: ADU, 2015, s. 278-282
15. Toni Morrisonun yaradıcılığında feminizm / Doktorant və Gənc tədqiqatçıların XIX Respublika elmi konfransının materialları. Bakı: ADİU, 2015, s. 17-19

Алия Халил гызы Ахмедова

# ПОЭТИКА ТОНИ МОРРИСОН


## Резюме

Диссертация посвящена исследованию поэтики творчества видного американского художника слова, лауреата Нобелевской премии Тони Моррисон.

Основной целью диссертации является изучение художественных особенностей отражения коренных рациональных и личностных проблем, расовой дискриминации в произведениях Т.Моррисон.

В первой главе диссертации *(«Художественно-эстетические особенности нового поколение афро-американской литературы в американской художественной мысли XX века»)*, во-первых, освещается исторический путь становления афро-американской литературы; во-вторых, подробно анализируется художественная продукция представителей «негритянского возрождения»; в-третьих выявляются истоки использования мифологических мотивов, рассматриваются особенности использования принципов магического реализма в творчестве Т.Моррисон.

Во второй главе *(«Синтез эстетики реализма и модернизма в творчестве Тони Моррисон»)* исследуются особенности взаимоотношений реализма и модернизма в американской литературе XX века, в частности в творчестве Т.Моррисон. В этой главе подробно анализируется поэтика романов Т.Моррисон «Возлюбленная», «Песня Соломона», «Джаз» и других.

В *Заключении* диссертации содержатся выводы исследования. Здесь сформулированы основные научно-теоретические положения работы.

Aliya Khalil Akhmadova

# POETICS OF TONI MORRISON

## Summary

The thesis touches upon to the investigation of poetics of creative activities of the distinguished American writer, a Nobel prize winner Toni Morrison. The main goal of the thesis is studying artistic features of reflection of main and personal problems, racial discrimination in the works of T.Morrison.

The first chapter of the thesis entitled "Artistic – aesthetic features of new generation of Afro-American Literature in American artistic conception of XX century" deals with the following problems:

1) the historical way of formation of Afro-American Literature;

2) detailed analysis of fiction works of representatives of "the Negro Renaissance";

3) sources of usage of mythological motives, features of usage of magical realism in the works of T.Morrison.

The second chapter called "Synthesis of aesthetics of realism and modernism in the works of T.Morrison" the features of interrelation of realism and modernism in the American Literature of XX century in particular in the works of T.Morrison are investigated. The detailed analysis of poetics of the novels "Beloved", "Song of Solomon", "Jazz" and others by T.Morrison is given in this chapter.

The Conclusion summarizes the basic results of the investigation. The main scientific-theoretical provisions of the thesis have been formulated here.

Çapa imzalanıb: 12.04.2017
Format: 60x84 1/16. Tiraj: 100.

«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
*e-mail: mutarjim@mail.ru*

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

На правах рукописи

АЛИЯ ХАЛИЛ гызы АХМЕДОВА

# ПОЭТИКА ТОНИ МОРРИСОН

5718.01 – Мировая литература (литература США)

АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии по филологии

Баку – 2017